# XOCALI FACİƏSİNİN İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ MƏRASİM







Fevral ayının 21-də Xəzər Universitetinin Müasir dillər və müqayisəli ədəbiyyat departamenti və "Azərbaycan – Latın Amerikası Gənclərinin Dostluğu" İctimai Birliyinin birgə təşkilatçılığı ilə universitetdə Xocalı faciəsinin iyirmi birinci ildönümü münasibətilə anım mərasimi keçirildi.

Müasir dillər və müqayisəli ədəbiyyat departamentinin koordinatoru Günel Məmmədova mərasimi açaraq, Xocalıda azərbaycanlılara qarşı törədilmiş soyqırım cinayətinin heç zaman unudulmayacağını bildirdi. Faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Sonra "Azərbaycan – Latın Amerikası Gənclərinin Dostluğu" İctimai Birliyinin sədri Mahir Qurbanov çıxış edərək, Azərbaycan Respublikasının soyqırımla bağlı ölkə daxilində və ölkəmizin hüdudlarından kənarda gördüyü tədbirlərdən, yerli və əcnəbi ölkələrdə fəaliyyət göstərən təşkilatların, səfirlik və konsulluqların keçirdiyi çoxsaylı görüş və konfranslardan danışdı.

Tədbirdə Azərbaycanın Meksikadakı səfirliyi tərəfindən hazırlanmış Xocalı haqqında sənədli film nümayiş etdirildi. Filmdən sonra Xocalı sakini, faciənin canlı şahidi İmarət Cəmillinin həyəcanlı çıxışı və yazdığı poemadan bir hissə dinlənildi.

Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli öz çıxışında mərasim iştirakçılarına Xocalı faciəsi haqqında yeni məlumatlar verib, onları mübariz olmağa çağırdı. Mərasim M. Qurbanovun son sözü ilə başa çatdı.




